**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**

**ALİ ATTESTASİYA KOMİSSİYASI RƏYASƏT HEYƏTİNİN**

**29 yanvar 2021-ci il tarixli**

**QƏRARI**

1. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 29.09.2020-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Fəlsəfə doktoru imtahanlarının keçirilmə Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.4-cü bəndin üçüncü cümləsi aşağıdakı redaksiyada verilsin:

"Beynəlxalq dil sertifikatları üzrə səviyyələrin xarici dil üzrə fəlsəfə doktoru imtahanı nəticələrinə ekvivalentliyi Komissiya tərəfindən müəyyənləşdirilir.";

1.2. 3.5-ci bəndin "iddiaçının təkrar imtahan verməsinə altı aydan tez olmamaq şərtilə icazə verilməsi" ilə bağlı ikinci cümləsi çıxarılsın.

2. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 29.09.2020-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Xarici dil üzrə fəlsəfə doktoru imtahanı üçün beynəlxalq dil sertifikatının imtahan nəticələrinin keçid balına ekvivalentliyi Cədvəli"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. adı "Beynəlxalq dil sertifikatları üzrə səviyyələrin xarici dil üzrə fəlsəfə doktoru imtahanı nəticələrinə ekvivalentliyi Cədvəli" kimi yazılsın;

2.2. adından sonra aşağıdakı cədvəl əlavə edilsin:

| **Beynəlxalq dil sertifikatları üzrə tələb edilən səviyyə (CEFR)** | **IELTS Academic** | **TOEFL iBT** | **TestDaF** | **DELF/DALF** | **STANAG** | **Xarici dil üzrə DİM-də keçirilən fəlsəfə doktoru imtahanı nəticələri** | **Xarici dil üzrə fəlsəfə doktoru imtahanı nəticələrinin qiymətləndirilməsi** |
|---|---|---|---|---|---|---|---|
| **B2** | 6.0 | 65-78 | TDN3-TDN4 (14-15) | DELF B2 (67-83) | 2222 | 35-39,5 | kafi |
| **B2** | 6.5 | 79-93 | TDN4 (16) | DELF B2 (84-100) | 3333 | 40-44,5 | yaxşı |
| **C1 və daha yüksək** | 7.0 və daha yüksək | 94 və daha yüksək | TDN4-TDN5 (17-20) | DALF C1 / DALF C2 (50-100) | 4444 və daha yüksək | 45-50 | əla |

Azərbaycan Respublikasının Prezidenti
yanında Ali Attestasiya Komissiyası
Rəyasət Heyətinin 29.09.2020-ci il tarixli
qərarı ilə təsdiq edilmiş, 29.01.2021-ci il tarixli
qərarı ilə əlavə və dəyişikliklər edilmişdir.

# Fəlsəfə doktoru imtahanlarının keçirilmə Qaydası

## 1. Ümumi müddəalar

1.1. "Fəlsəfə doktoru imtahanlarının keçirilmə Qaydası" (bundan sonra - Qayda) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin 2.11-ci bəndinə uyğun olaraq hazırlanmışdır.

1.2. Fəlsəfə doktoru imtahanlarının verilməsi iddiaçının dissertasiya müdafiəsinə buraxılması üçün mütləq şərtdir.

1.3. Fəlsəfə doktoru imtahanları fəlsəfə doktoru elmi dərəcəsi iddiaçısının attestasiyasının əsas tərkib hissəsi olub, dissertasiyanın ilkin müzakirəsinədək verilir və iddiaçının ixtisas üzrə bilik səviyyəsini müəyyən edir.

1.4. Fəlsəfə doktoru imtahanları aşağıdakı fənlər üzrə verilir:

- ixtisas fənni (dissertasiya iki ixtisas üzrə hazırlandığı halda həmin ixtisas fənlərinin hər birindən);
- xarici dil (ingilis, alman və ya fransız dillərindən biri);
- Azərbaycan dili (əcnəbi və vətəndaşlığı olmayan iddiaçılar üçün).

1.5. Fəlsəfə doktoru imtahanlarının nəticələri həmin imtahanların verildiyi tarixdən dissertasiyanın ilkin müzakirəsinədək beş il müddətində etibarlı sayılır.

1.6. İddiaçılara hər bir fəlsəfə doktoru imtahanı üzrə onun nəticəsini özündə əks etdirən və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (bundan sonra - Komissiya) müəyyən etdiyi formada şəhadətnamə (Əlavə 8.1, Əlavə 8.2 və Əlavə 8.3) verilir.

## 2. İxtisas fənnindən fəlsəfə doktoru imtahanının keçirilməsi

2.1. İxtisas fənni üzrə fəlsəfə doktoru imtahanı iddiaçının seçiminə uyğun olaraq, dissertasiya işinin yerinə yetirildiyi və ya dissertasiya müdafiəsinin keçiriləcəyi elmi müəssisə və təşkilatda, ali təhsil müəssisəsində verilir.

2.2. İxtisas fənni üzrə fəlsəfə doktoru imtahanı ildə iki dəfədən az olmamaqla yaz və payız sessiyalarında keçirilir. İmtahanın keçiriləcəyi tarix, vaxt və yer müvafiq elmi müəssisə və təşkilat, ali təhsil müəssisəsi rəhbərinin əmri ilə təsdiq olunur.

2.3. İxtisas fənni üzrə fəlsəfə doktoru imtahanının keçiriləcəyi tarix barədə məlumat bir ay əvvəl müvafiq elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin rəsmi internet saytında yerləşdirilir.

2.4. İxtisas fənni üzrə fəlsəfə doktoru imtahanı Komissiya tərəfindən təsdiq edilmiş müvafiq proqram əsasında keçirilir.

2.5. Müvafiq proqramların elektron versiyaları (məzmununda dövlət sirri təşkil edən məlumatlar olan ixtisaslar üzrə proqramlar istisna olmaqla) elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin rəsmi internet saytında yerləşdirilir, çap versiyaları doktorantura şöbələrində və elmi kitabxanalarda saxlanılır.

2.6. Dissertasiyanın mövzusu iki ixtisası əhatə etdikdə hər iki ixtisasdan fəlsəfə doktoru imtahanı verilir.

2.7. İxtisas fənni üzrə fəlsəfə doktoru imtahanının keçirilməsi üçün elmi müəssisə və təşkilat, ali təhsil müəssisəsi rəhbərinin əmri ilə hər bir ixtisas üzrə tərkibi beş nəfərdən az olmamaqla sədr, sədr müavini və üzvlərdən ibarət imtahan komissiyası yaradılır.

2.8. İxtisas fənni üzrə fəlsəfə doktoru imtahanının keçirilməsi üçün yaradılan imtahan komissiyalarında (bundan sonra – imtahan komissiyaları) müvafiq ixtisas üzrə azı iki elmlər doktoru və ya professor olmaqla yüksəkixtisaslı elmi kadrlar təmsil olunurlar. İmtahan komissiyalarının tərkibinə digər elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin yüksəkixtisaslı mütəxəssisləri daxil edilə bilərlər.

2.9. İmtahan komissiyası sədrinin (və ya sədr müavininin) və azı bir elmlər doktorunun iştirakı təmin edilməklə, azı üç üzvü iştirak etdikdə ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanının keçirilməsinə yol verilir.

2.10. İxtisas fənni üzrə fəlsəfə doktoru imtahanında iştirak etmək üçün dissertasiya işinin yerinə yetirildiyi və ya dissertasiya müdafiəsinin keçiriləcəyi elmi müəssisə və təşkilata, ali təhsil müəssisəsinə aşağıdakı sənədlər təqdim edilir:

- şəxsiyyəti təsdiq edən sənədin surəti əlavə olunmaqla iddiaçının ərizəsi;

- iddiaçı ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanının keçiriləcəyi elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin doktorantı (dissertantı, adyunktu) olmadığı halda, onun dissertasiya işinin yerinə yetirildiyi müəssisədən müvafiq müraciət məktubu.

2.11. İxtisas fənni üzrə fəlsəfə doktoru imtahanına buraxılan şəxslərin siyahısı müvafiq elmi müəssisə və təşkilat, ali təhsil müəssisəsi rəhbərinin əmri ilə təsdiq edilir.

2.12. İxtisas fənni üzrə fəlsəfə doktoru imtahanı Komissiya tərəfindən təsdiq edilmiş müvafiq proqram əsasında imtahan komissiyası tərəfindən tərtib edilən və elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin müvafiq möhürü ilə təsdiqlənmiş biletlər üzrə yazılı və şifahi keçirilir.

2.13. İxtisas fənni üzrə fəlsəfə doktoru imtahanının müddəti 2 saat 30 dəqiqədir.

2.14. İddiaçı sualları 2 saat ərzində cavab vərəqində yazılı, 30 dəqiqə ərzində imtahan komissiyasının üzvləri qarşısında şifahi qaydada cavablandırır.

2.15. Cavab vərəqləri əvvəlcədən elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin müvafiq möhürü ilə təsdiqlənir.

2.16. Hər bir imtahan bileti ixtisas üzrə dörd sualdan ibarətdir. İddiaçının biletində olan suallar və onlara verilən cavablar cavab vərəqində qeyd edilir. İddiaçının dissertasiya mövzusuna dair beşinci sual imtahan komissiyasının üzvləri tərəfindən ona şifahi cavablandırma zamanı verilir və imtahan vərəqində qeyd edilmir.

2.17. İddiaçıların cavab vərəqləri bir il ərzində fəlsəfə doktoru imtahanının verildiyi müvafiq elmi müəssisə və təşkilatda, ali təhsil müəssisəsində saxlanılır.

2.18. İmtahan komissiyasının üzvləri iddiaçıya biletə düşən suallar çərçivəsində və dissertasiya mövzusuna dair əlavə dəqiqləşdirici suallar verə bilərlər.

2.19. İxtisas fənni üzrə fəlsəfə doktoru imtahanının nəticəsində imtahan komissiyası üzvləri tərəfindən iddiaçının bilik səviyyəsi "İmtahan nəticələrinin qiymətləndirilməsi meyarları"na (Əlavə 8.4) müvafiq olaraq "əla", "yaxşı", "kafi" və ya "qeyri-kafi" ilə qiymətləndirilir.

2.20. İmtahan komissiyalarının qərarı protokolla rəsmiləşdirilir (Əlavə 8.5). Protokolda imtahan komissiyasının hər bir üzvünün elmi dərəcəsi, elmi adı, adı, soyadı və atasının adı, iddiaçının adı, atasının adı, soyadı, fəlsəfə doktoru imtahanlarının verildiyi elm sahəsinin adı, ixtisasın adı və şifrəsi, dissertasiyanın mövzusu, iddiaçıya bilet üzrə və əlavə verilən suallar, iddiaçının fəlsəfə doktoru imtahanı üzrə bilik səviyyəsinin

qiymətləndirilməsinə dair yekun nəticə qeyd edilir. Protokol imtahan komissiyasının sədri və üzvləri tərəfindən imzalanır, elmi müəssisə və təşkilat, ali təhsil müəssisəsi tərəfindən müvafiq qaydada təsdiq olunur.

2.21. İddiaçı ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanını vermək üçün üzrlü səbəbdən imtahana gəlmədikdə, imtahanın verilməsi onun şəxsi ərizəsi əsasında növbəti imtahan sessiyası zamanı təşkil edilir.

2.22. İddiaçının ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanının nəticəsi "qeyri-kafi" qiymətləndirildikdə ona şəhadətnamə verilmir. Bu halda iddiaçının təkrar imtahan verməsinə altı aydan tez olmamaq şərtilə icazə verilir.

## 3. Xarici dil, habelə əcnəbi və vətəndaşlığı olmayan iddiaçılar üçün Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanının keçirilməsi

3.1. Xarici dil, habelə əcnəbi və vətəndaşlığı olmayan iddiaçılar üçün Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanı Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (bundan sonra – DİM) tərəfindən keçirilir.

3.2. Xarici dil, habelə əcnəbi və vətəndaşlığı olmayan iddiaçılar üçün Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanının məzmunu, imtahanın keçirilmə qaydası, nəticələrinin qiymətləndirilməsi meyarları və keçid balı Komissiya ilə razılaşdırılmaqla, DİM tərəfindən müəyyənləşdirilir.

3.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"na müvafiq olaraq doktoranturaya qəbul zamanı xarici dil imtahanından bu Qaydanın 3.2-ci bəndi ilə nəzərdə tutulan qaydada müəyyən edilən keçid balını toplamış iddiaçılar dissertasiyalarını həmin imtahanı verdikləri tarixdən beş il müddətində ilkin müzakirəyə təqdim etdikləri təqdirdə xarici dil üzrə fəlsəfə doktoru imtahanından azad olunurlar.

3.4. Xarici dil üzrə B2 və ya daha yüksək səviyyəli beynəlxalq dil sertifikatına (IELTS, TOEFL, TestDaF, DELF, DALF, STANAG) malik olanlar həmin sertifikatın qüvvədə olduğu müddətdə xarici dil üzrə fəlsəfə doktoru imtahanından azad olunur. Həmin şəxslər sertifikatlarının notariat qaydasında təsdiq edilmiş surətini attestasiya sənədlərinə əlavə

etməlidirlər. Beynəlxalq dil sertifikatları üzrə səviyyələrin xarici dil üzrə fəlsəfə doktoru imtahanı nəticələrinə ekvivalentliyi Komissiya tərəfindən müəyyənləşdirilir.

3.5. İddiaçının xarici dil, habelə əcnəbi və vətəndaşlığı olmayan iddiaçılar üçün Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanının nəticəsi "qeyri-kafi" qiymətləndirildikdə ona şəhadətnamə verilmir.

## 4. Yekun müddəa

4.1. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin 2.13-cü bəndinə əsasən iddiaçının hazırladığı dissertasiyanın profili üzrə elm sahəsində ali təhsili olmadıqda (tibb və baytarlıq elmləri istisna olmaqla), həmin elm sahəsinin ümumelmi əsaslarından verilən əlavə imtahanın keçirilməsi zamanı bu Qaydanın müddəaları tətbiq edilir.

**Əlavə 8.1**

______________________________________________________________

(elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin adı)

İxtisas fənni üzrə fəlsəfə doktoru imtahanının nəticələrinə dair

**ŞƏHADƏTNAMƏ**

Verilir ______________________________________________________________

(adı, atasının adı, soyadı)

ondan ötrü ki, o, ____________________________________________ tarixində

(gün, ay, il)

__________________________________________________________ elm sahəsi üzrə

(elm sahəsinin adı)

____________________________________________________________ ixtisasından

(ixtisasın şifri və adı)

fəlsəfə doktoru imtahanını vermiş, _____ yekun balla ____________ qiymətləndirilmişdir.

(bal) (“əla”, “yaxşı” və ya “kafi”)

Bu şəhadətnamə dissertasiyanın ilkin müzakirəsinədək beş il müddətində etibarlı sayılır.

**Elmi müəssisə və təşkilatın,**

**ali təhsil müəssisəsinin rəhbəri** ________ ______________________________

(imza) (elmi dərəcəsi, elmi adı, adı, atasının adı, soyadı)

M.Y.

(Bu şəhadətnamə ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanı protokolunun surəti ilə birlikdə təqdim edilir)

# Azərbaycan Respublikasının
# Dövlət İmtahan Mərkəzi

Xarici dil üzrə fəlsəfə doktoru imtahanının nəticələrinə dair

## ŞƏHADƏTNAMƏ

Verilir ____________________________________________
(adı, atasının adı, soyadı)

ondan ötrü ki, o, ______________________________ tarixində
(gün, ay, il)

______________________ dili üzrə fəlsəfə doktoru imtahanını vermiş,
(ingilis, alman və ya fransız)

__________ yekun balla __________________ qiymətləndirilmişdir.
(bal) (“əla”, “yaxşı” və ya “kafi”)

Bu şəhadətnamə dissertasiyanın ilkin müzakirəsinədək beş il müddətində etibarlı sayılır.

**Direktorlar Şurasının sədri** __________ ______________________
(imza) (adı, soyadı)

M.Y.

Əlavə 8.3

# Azərbaycan Respublikasının
# Dövlət İmtahan Mərkəzi

Əcnəbi və vətəndaşlığı olmayan iddiaçılar üçün Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanının nəticələrinə dair

## ŞƏHADƏTNAMƏ

Verilir ____________________________________________
(adı, atasının adı, soyadı)

ondan ötrü ki, o, ____________________ tarixində Azərbaycan dili üzrə

fəlsəfə doktoru imtahanını vermiş, _____ yekun balla ____________ qiymətləndirilmişdir.
(bal) ("əla", "yaxşı" və ya "kafi")

Bu şəhadətnamə dissertasiyanın ilkin müzakirəsinədək beş il müddətində etibarlı sayılır.

**Direktorlar Şurasının sədri** __________ ______________________
(imza) (adı, soyadı)

M.Y.

## Fəlsəfə doktoru imtahan nəticələrinin qiymətləndirilməsi meyarları

1. İxtisas fənni üzrə fəlsəfə doktoru imtahanı zamanı iddiaçının hər bir suala cavabı 0-10 arası balla qiymətləndirilir.

2. İddiaçı sualı cavablandıra bilmədikdə 0 balla və ya düzgün cavablandırmadıqda 1-2 balla, qismən cavablandırdıqda 3-4 balla, qənaətbəxş 5-6 balla, yaxşı cavablandırdıqda 7-8 balla və tam, dolğun cavablandırdıqda 9-10 balla qiymətləndirilir.

3. İmtahan komissiyasının hər bir üzvü iddiaçının hər bir sual üzrə cavabını ayrılıqda qiymətləndirir.

4. İddiaçının ixtisas fənni üzrə bilik səviyyəsi qiymətləndirilərkən imtahan komissiyası üzvləri tərəfindən aşağıdakı meyarlar müəyyən edilir:

- ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanı proqramı ilə nəzərdə tutulan materialın mənimsənilmə səviyyəsi;
- praktiki tapşırıqların yerinə yetirilməsi zamanı nəzəri biliklərdən istifadə etmə bacarığı;
- sualların əsaslı, dəqiq, mahiyyəti üzrə və mümkün qədər qısa şəkildə cavablandırılması.

5. İddiaçının cavabları onun bilik və bacarıqlarının səviyyəsinə uyğun olaraq aşağıdakı kimi qiymətləndirilir:

- “əla” (45-50 bal) - ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanı proqramı həcmində dərin və hərtərəfli biliyə malik olmaq, əldə olunmuş biliyi təcrübədə düzgün və dəqiq tətbiq etmək, cavabları məntiqi cəhətdən düzgün qurmaq, proqramla tövsiyə edilmiş əlavə ədəbiyyat barədə məlumatlı olmaq;
- “yaxşı” (35-44 bal) - ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanı proqramı həcmində dəqiq və kifayət qədər biliyə malik olmaq, sualları cüzi səhvlərə yol verməklə cavablandırmaq, nəzəri biliyi təcrübədə düzgün tətbiq etmək, məzmunu dəqiq şərh edə bilmək;
- “kafi” (25-34 bal) - ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanı proqramı həcmində məlumatlı olmaq, sualları müəyyən səhvlərə yol verməklə cavablandırmaq, həmin səhvləri imtahan komissiyası üzlərinin əlavə dəqiqləşdirici sualları nəticəsində aradan qaldırmaq, biliyi təcrübədə düzgün tətbiq etmək;

- “qeyri-kafi” (0-24 bal) - sualları cavablandırarkən ciddi səhvlərə yol vermək, sualın mahiyyətini anlamamaq, biliyi təcrübədə tətbiq edə bilməmək, imtahan komissiyası üzvlərinin əlavə dəqiqləşdirici suallarını cavablandırmamaq.

6. Yekun qiymətin müəyyən edilməsi məqsədilə imtahan komissiyası üzvlərinin verdikləri ballar toplanaraq ümumi orta bal hesablanır və protokola qeyd edilir.

7. Hesablama nəticəsində iddiaçının yekun orta balı tam ədəd olmadıqda, yuvarlaqlaşdırılaraq protokolda tam ədəd qeyd edilir.

8. Xarici dil, habelə əcnəbi və vətəndaşlığı olmayan iddiaçılar üçün Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanı nəticələrinin qiymətləndirilməsi meyarları Komissiya ilə razılaşdırılmaqla, DİM tərəfindən müəyyənləşdirilir.

________________________________________________

(elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin adı)

İmtahan komissiyasının «_____»____________ 20__-ci il tarixli

**PROTOKOLU № _____**

İmtahan komissiyasının tərkibi:

1. ________________________________________________
(elmi dərəcəsi, elmi adı, adı, atasının adı, soyadı)

2. ________________________________________________
(elmi dərəcəsi, elmi adı, adı, atasının adı, soyadı)

3. ________________________________________________
(elmi dərəcəsi, elmi adı, adı, atasının adı, soyadı)

4. ________________________________________________
(elmi dərəcəsi, elmi adı, adı, atasının adı, soyadı)

5. ________________________________________________
(elmi dərəcəsi, elmi adı, adı, atasının adı, soyadı)

Komissiyanın tərkibi “_____”________20__-ci il______№-li əmrlə təsdiq edilib.

İmtahan komissiyası tərəfindən

________________________________________________
(iddiaçının adı, atasının adı, soyadı)

________________________ ixtisasında ____________________ elm sahəsi üzrə
(ixtisasın şifri və adı) (elm sahəsinin adı)

________________________________________________
(dissertasiyanın mövzusu)

mövzusunda yazdığı dissertasiyanın müdafiəsinə buraxılması üçün

________________________________________________
(ixtisas fənninin adı)

fənnindən fəlsəfə doktoru imtahanı götürülmüşdür.

Bilet üzrə imtahan sualları:

1. ________________________________________________
2. ________________________________________________
3. ________________________________________________
4. ________________________________________________

Dissertasiya mövzusuna dair sual:

5. ______________________________________________________________________

Əlavə dəqiqləşdirici suallar:

1. ______________________________________________________________________
2. ______________________________________________________________________
3. ______________________________________________________________________

İddiaçının cavabları imtahan komissiyasının üzvləri tərəfindən aşağıdakı kimi qiymətləndirilmişdir:

1. ______________________________________________________________________
(komissiya üzvünün adı, soyadı və verdiyi bal)
2. ______________________________________________________________________
(komissiya üzvünün adı, soyadı və verdiyi bal)
3. ______________________________________________________________________
(komissiya üzvünün adı, soyadı və verdiyi bal)
4. ______________________________________________________________________
(komissiya üzvünün adı, soyadı və verdiyi bal)
5. ______________________________________________________________________
(komissiya üzvünün adı, soyadı və verdiyi bal)

Yekun qərar:

________________________________________________________________________
(iddiaçının adı, atasının adı, soyadı)

______________________________ ixtisasında ________________________elm sahəsi üzrə
(ixtisasın şifri və adı) (elm sahəsinin adı)

____________________________________________________________ mövzusunda yazdığı
(dissertasiyanın mövzusu)

dissertasiyanın müdafiəsinə buraxılması üçün ______________________________________
(ixtisas fənninin adı)

____________________________________________________________ fənnindən fəlsəfə
(ixtisas fənninin adı)

doktoru imtahanının nəticəsi ______ balla _____________________ qiymətləndirilmişdir.
(bal) (“əla”, “yaxşı”, “kafi” və ya “qeyri-kafi”)

İmtahan komissiyasının sədri: ____________ ______________________________
(imza) (adı, atasının adı, soyadı)

Komissiya üzvləri: ____________ ______________________________
(imza) (adı, atasının adı, soyadı)

____________ ______________________________
(imza) (adı, atasının adı, soyadı)

____________ ______________________________
(imza) (adı, atasının adı, soyadı)

________________ ________________________________________________

(imza) (adı, atasının adı, soyadı)

Qeyd:

Protokol elmi müəssisə və təşkilat, ali təhsil müəssisəsi tərəfindən müvafiq qaydada təsdiq olunur.

Azərbaycan Respublikasının Prezidenti
yanında Ali Attestasiya Komissiyası
Rəyasət Heyətinin 29.09.2020-ci il tarixli
qərarı ilə təsdiq edilmiş, 29.01.2021-ci il tarixli
qərarı ilə əlavə və dəyişikliklər edilmişdir.

# BEYNƏLXALQ DİL SERTİFİKATLARI ÜZRƏ SƏVİYYƏLƏRİN XARİCİ DİL ÜZRƏ FƏLSƏFƏ DOKTORU İMTAHANI NƏTİCƏLƏRİNƏ EKVİVALENTLİYİ CƏDVƏLİ

| Beynəlxalq dil sertifikatları üzrə tələb edilən səviyyə (CEFR) | IELTS Academic | TOEFL iBT | TestDaF | DELF/DALF | STANAG | Xarici dil üzrə DİM-də keçirilən fəlsəfə doktoru imtahanı nəticələri | Xarici dil üzrə fəlsəfə doktoru imtahanı nəticələrinin qiymətləndirilməsi |
|---|---|---|---|---|---|---|---|
| **B2** | 6.0 | 65-78 | TDN3-TDN4 (14-15) | DELF B2 (67-83) | 2222 | 35-39,5 | **kafi** |
| **B2** | 6.5 | 79-93 | TDN4 (16) | DELF B2 (84-100) | 3333 | 40-44,5 | **yaxşı** |
| **C1 və daha yüksək** | 7.0 və daha yüksək | 94 və daha yüksək | TDN4- TDN5 (17-20) | DALF C1 / DALF C2 (50-100) | 4444 və daha yüksək | 45-50 | **əla** |

## BEYNƏLXALQ DİL SERTİFİKATLARI ÜZRƏ BİLİK SƏVİYYƏSİNİN TƏSVİRİ

| XARİCİ DİL ÜZRƏ BİLİK SƏVİYYƏSİ | AÇIQLAMA |
|---|---|
| **A1** | ● gündəlik həyatda yaranan ehtiyatları ödəmək üçün lazımi əsas ifadələri başa düşür və istifadə edir;<br>● özünü və başqalarını təqdim etməyi bacarır, şəxsi məlumatları əldə etmək məqsədi ilə müəyyən suallar verə bilir və bu kimi sualları cavablandıra bilir;<br>● yavaş və aydın formada danışan bir şəxslə ünsiyyət qura və ona kömək edə bilir; |
| **A2** | ● gündəlik həyatla əlaqəli olan əsas cümlələri və tez-tez istifadə olunan ifadələri (şəxsi və ailə üzvləri ilə bağlı olan əsas məlumatları, alış-veriş, yaşayış yeri, iş və s.) başa düşür;<br>● ailə və gündəlik işlərlə bağlı informasiya mübadiləsini özündə əks etdirən sadə məsələlər ətrafında ünsiyyət qura bilir;<br>● özü, ailə üzvləri və digər yaxınları haqqında sadə formada danışa bilir, gündəlik həyatın əsas aspektlərini təsvir edə bilir; |
| **B1** | ● iş və məktəb mühitində, asudə vaxtlarında mütəmadi olaraq qarşılaşdığı müxtəlif mövzuların əsas məqamlarını başa düşür;<br>● müvafiq dildən istifadə etdiyi ölkədə qaldığı müddətdə qarşılaşdığı müxtəlif vəziyyətlərin öhdəsindən gələ bilir;<br>● şəxsi maraq dairəsi və oxşar mövzularla əlaqəli sadə mətnlər hazırlaya bilir;<br>● müxtəlif sahələr üzrə təcrübəsini, xəyallarını, ümidlərini, ambisiyalarını və hadisələri təsvir edə bilir, gələcəyə dair fikir və planları haqqında qısa arayış verə bilir; |

**B2**

● ixtisaslaşdığı sahə ilə bağlı texniki məsələləri də özündə əks etdirən konkret və mücərrəd mövzularla əlaqəli əsas mətnlərin məğzini başa düşür;
● əcnəbi ilə heç bir çətinlik çəkmədən səlis və sərbəst ünsiyyət qura bilir;
● müxtəlif mövzular üzrə aydın və əhatəli mətnlər hazırlaya, aktual məsələlər, müxtəlif yanaşmaların üstünlükləri və mənfi cəhətləri haqqında fikir bildirə bilir;

**C1**

● müxtəlif mövzularda genişhəcimli və mürəkkəb mətnləri başa düşür;
● lüğətdən istifadə etmədən öz fikirlərini sərbəst və birbaşa ifadə edə bilir;
● sosial, akademik və peşəkar məqsədlər üçün müvafiq dildən çevik və effektiv istifadə edə bilir;
● mürəkkəb mövzularla bağlı aydın, yaxşı strukturlaşdırılmış və əhatəli mətn hazırlaya bilir;

**C2**

● dinlədiyi və oxuduğu hər şeyi praktik olaraq asan şəkildə başa düşür;
● müxtəlif yazılı və şifahi mənbələrdən əldə etdiyi məlumatları ümumiləşdirə bilir, müxtəlif arqument və hesabatları tutarlı təqdimat formasında hazırlaya bilir;
● özünü sərbəst və tam şəkildə ifadə edə bilir, ünsiyyət zamanı sözləri müxtəlif məna çalarları üzrə fərqləndirə bilir.

***Dil biliklərini təsvir etmək üçün tətbiq edilən Dil bilikləri üzrə ümumavropa çərçivə sənədi (The Common European Framework of Reference for Languages - CEFR) əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 11 iyul tarixli 285 nömrəli qərarı nəzərə alınmaqla hazırlanmışdır.***